# Folklor xalq həyatının əks-sədasıdır

## ATALAR SÖZLƏRİ

Su balığın sultanlığıdır.

Sərçəni bəzəyib bülbül yerinə satar.

Duvarı dibindən qazmazlar.

Duvarın dalısı qəriblikdi.

Əlişaha getdin, ayaq götür, Binisə getdin, çörək götür.

Adın nədir Rəşid, birin dedin, birin eşit.

Elə bil Ərdəbil tütəyidir.

Arvad üzlü kişidən, kişi üzlü arvaddan əlhəzər.

Arvadın axır hiyləsi ağlamaqdır.

Arvadın biri əla, ikisi bəla.

Arvadın isməti - ərin izzəti.

Arvadın axrın hərbəsi ağlamaqdır.

Arvadsız ev - susuz dəyirman.

Arux axsax gətirir, çubuq dava.

Aş daşanda çömçənin biri yüz tümən olar.

Aşın duruluğu dəmin yoxluğundandı.

Ata olmaq asandır, atalıq öyrənmək çətin.

Atalar nə əkiblər, oğullar onu biçiblər.

Atası ölən yetim qalmaz, anası ölən yetim olar.

Atnan qatur əlləşir, arada eşşəy ölür.

Atı atın yanına bağlasan, ya huyun götürər, ya xasiyyətin.

Atun almamış axurun bağlır.

Atını satan qaturun ala bilməz.

Az olsun, yaxşı olsun.

Az ver çox yalvar, çox ver az yalvar.

Aza qane ol, çoxu Allahdan istə.

Azın qədrini bilməyən çoxun da qədrini bilməz.

Dəlilər dünyanı əkdilər, ağıllı indi cüt qoşur!

Dəliyə ağıl, qaraya sabun kar eyləməz.

Dəliyə gündə bayramdır.

Dəliyə halva-külçə neyləsinə Dəliyə sorğu olmaz.

Dəliyə yüz öyrət, öz bildiyini eylər.

Dəmirçi nə bilir qızıl nədirə Dəmirçi yanından keçən qığılcım yeyər.

Dəmirçidə bıçaq tapılmaz.

Dəmir nəmdən, insan qəmdən çürüyər.

## ƏLİŞAHDA TAPMACALAR

Bizim evdə dörd gəlin var dördü də bir boyda - *otağın dörd bucağı.*

O nədir ki, göydən yerə sallanar - *yağış.*

O nədir ki, qatarlanar yollanar - *ölü.*

Bir qırmızı divar üstə otuz iki ağ quş oturub - *diş.*

O nədir ki, dağda şaqqıldar, suda şappıldar - *ildırım.*

O nədir ki, yer altında yasa gedər - *gavahın (xış).*

Kənddə solmayan obada fərman - *xoruz, it.*

O nədir ki, balalarını dövrəsinə yığar sızlayar - *samavar.*

Bir otaqda iki ab-hava - *yumurta.*

Bizim evdə bir quyu var, abi-zəmzəm suyu var, başında cövhər dənəsi - *çıraq.*

Bir atım var kəhani, gəzər bütün cahanı, ətini yemək olmaz nə əti var, nə qanı - *yel.*

Ağzı dardı əlamət, içi qırmızı qiyamət, yaş vurarsan quru çıxar, səlli əla Məhəmməd - *təndir çörək.*

Uca dağdan alçaq dama qar yağar - *ələk.*

**(davamı növbəti saylarımızda)**

**Esmira FUAD,**
**filologiya elmləri doktoru.**

Respublika .- 2023.- 19 aprel.- S.14.